**AZƏRBAYCAN RESPUBLİKASI**

**MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASININ**

# QƏRARI

**№ Q-23**

**Bakı şəhəri** **“16” dekabr 2016-cı il**

## Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 09 yanvar tarixli Q-02 nömrəli qərarı ilə təsdiq edilmiş "Ciddi hesabat blanklarının tətbiqi və uçotunun aparılması Qaydaları”nda dəyişiklik edilməsi barədə

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəliFərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 09 yanvar tarixli Q-02 nömrəli qərarı ilə təsdiq edilmiş "Ciddi hesabat blanklarının tətbiqi və uçotunun aparılması Qaydaları”nın 2.2-ci bəndində “həmin fəaliyyətə xüsusi razılıq (lisenziya) almış” sözləri “ciddi hesabat blanklarının hazırlanması fəaliyyətini həyata keçirən” sözləri ilə əvəz edilsin.

2. Nazirliyin aparatının Uçot siyasəti şöbəsinə tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Kollegiyanın sədri,** **Samir Şərifov**

**Azərbaycan Respublikasının**

**maliyyə naziri**